# «TURKIY XALQLARNING MA'NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

## MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA

TOSHKENT - 2025

**O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI**

**ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI**

# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

**MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA MATERIALLARI**

**TOSHKENT - 2025**

Mazkur ilmiy maqolalar to‘plamida «Turkiy xalqlarning ma’naviy integratsiyasi: tili, adabiyoti, madaniyati» II Xalqaro ilmiy-amaliy konferensiyasi materiallari jamlangan. Maqolalarda turkiy tillarning rivoji va o‘zaro o‘xshashliklarini, umumiy adabiy merosimizni ilmiy asosda chuqur o‘rganish; madaniy aloqalarni zamonaviy texnologiyalar orqali kengaytirish; tarjima va adabiy almashinuv orqali xalqaro miqyosda muloqotni kuchaytirish; raqamli platformalar orqali integratsiyani amalga oshirishga oid fikrlar yoritib berilgan. To‘plamdan dunyo bo‘yicha taniqli turkiyshunos olimlar, metodistlar, o‘qituvchilar hamda ToshDO‘TAU iqtidorli talabalarining maqolalari ham o‘rin olgan.

To‘plam til va adabiyot ta‘limi bilan shug‘ullanuvchi professor-o‘qituvchilar, shu sohaning tadqiqotchilari, magistrant va talabalarga mo‘ljallangan.

**Taqrizchilar:**

**G.Asilova** – *pedagogika fanlari doktori (DSc), professor.*

**G.Norimova** – *filologiya fanlari nomzodi, dotsent.*

**Tahrir hay’ati:**

S.Muhamedova, S.Qambarova, O.Turaqulova,
Y.Shirinova, M.Yo‘ldosheva.

*Mazkur to‘plam matni Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti Kengashining 2025-yil 2-iyundagi 10-sonli majlisida muhokama qilinib, nashrga tavsiya qilingan.*

*Izoh: Maqolalarning ilmiy saviyasi uchun mualliflar o‘zlari mas’uldirlar.*

# BIRINCI TÜRKOLOJI QURULTAYDA İŞTIRAK EDƏN ÖZBƏK NÜMAYƏNDƏLƏRI

**Mirzəzadə Rəqsanə**
*Filologiya fakültəsinin tələbəsi*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*orcid.org/0009-0005-2441-6291*
*rqsanmirzzad@gmail.com*
*Elmi rəhbər: f.e.d.prof. Mirvari İsmayılova*

**Xülasə**: 1926-cı il fevralın 26-da Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayda iştirak edən özbək nümayəndələrinin fəaliyyəti və türkdilli xalqların elmi, mədəni və dil məsələlərinin müzakirəsindəki rolu araşdırılır. Qurultayda iştirak edən 131 nümayəndədən 6-sının Özbəkistandan olması, bu xalqın ümumtürk inteqrasiya proseslərində fəal iştirak etdiyini göstərir. Tədqiqat Abdurrəşid Abducabbarov, Qazi Alim Yunusov və Məşriq Yunus oğlu Elbəy kimi ziyalıların maarifçilik, mətbuat və ədəbiyyat sahələrindəki fəaliyyəti, həmçinin Sovet repressiyalarına baxmayaraq, ictimai-mədəni həyatdakı mövqelərini qoruyub saxlamaları üzərində qurulmuşdur. Qurultay çərçivəsində özbək nümayəndələrinin yalnız iştirakçı kimi deyil, həm də konkret elmi və təşkilati təkliflərlə çıxış edərək türkologiya elminə töhfələr verdikləri müəyyən edilmişdir. Xüsusilə Abdurrəşid Abducabbarovun irəli sürdüyü təkliflərin elmi və praktiki əhəmiyyəti qeyd olunur. Araşdırmanın nəticələri göstərir ki, özbək nümayəndələrinin təşəbbüsləri türkdilli xalqlar arasında elmi-mədəni inteqrasiyanın güclənməsinə və ümumtürk ideyalarının formalaşmasına mühüm təsir göstərmişdir.

***Açar sözlər:***Birinci Türkoloji Qurultay, Özbək nümayəndələri, Özbəkistan, Azərbaycan – Özbəkistan münasibətləri.

**Annotatsiya:** 1926-yil 26-fevralda Bokuda boʻlib oʻtgan I Turkologik Qurultoyda qatnashgan oʻzbek vakillarining faoliyati, turkiy tilli xalqlarning ilmiy, madaniy, tilshunoslik masalalarini muhokama qilishdagi roli oʻrganiladi. Qurultoyda qatnashgan 131 nafar vakildan 6 nafari Oʻzbekistondan boʻlganligi bu xalqning panturkiy integratsiya jarayonlarida faol ishtirok etganidan dalolat beradi. Tadqiqot Abdujabborov, Gʻozi Olim Yunusov, Mashrig Yunus oʻgʻli Elbey kabi ziyolilarning ta'lim, matbuot va adabiyot sohalaridagi faoliyati, sovet qatagʻonlariga qaramay, ijtimoiy-madaniy hayotdagi mavqeini saqlab qolganliklariga asoslanadi. Qurultoy :rasida oʻzbekistonlik vakillar nafaqat ishtirokchi sifatida, balki aniq ilmiy-tashkiliy takliflar bilan ham turkologiya faniga hissa qoʻshgani aniqlandi. Xususan, Abdurrashid Abdujabborov tomonidan ilgari surilgan takliflarning ilmiy-amaliy ahamiyati alohida ta'kidlanadi. Tadqiqot natijalari shuni koʻrsatadiki, oʻzbek vakillarining tashabbuslari turkiyzabon xalqlar oʻrtasida ilmiy-madaniy integratsiyaning kuchayishiga, panturkistik gʻoyalarning shakllanishiga katta ta'sir koʻrsatdi.

**Kalit soʻzlar:** Birinchi Turkologik qurultoy, Oʻzbekiston vakillari, Oʻzbekiston, Ozarbayjon-Oʻzbekiston munosabatlari.

**Abstract**: The participation of Uzbek delegates in the First Turkological Congress held in Baku on February 26, 1926, and their role in the discussion of scientific, cultural, and linguistic issues among Turkic-speaking peoples are explored in this study. The fact that 6 out of the 131 delegates at the congress were from Uzbekistan indicates this nation's active involvement in the overall Turkic integration processes. The research focuses on the educational, journalistic, and literary activities of intellectuals such as Abdurashid Abdujabbarov, Ghazi Alim Yunusov, and Mashriq Yunus oglu Elbay, as well as their ability to maintain their positions in public and cultural life despite Soviet repressions. It was determined that Uzbek representatives at the congress not only participated as attendees but also contributed to Turkological science with specific scientific and organizational proposals.

In particular, the scientific and practical significance of the suggestions put forward by Abdurashid Abdujabbarov is emphasized. The results of the study show that the initiatives of the Uzbek delegates had a significant impact on strengtheningscientific and cultural integration among Turkic-speaking peoples and shaping pan-Turkic ideas.

***Keywords***: *First Turkological Congress, Uzbek representatives, Uzbekistan, Azerbaijan-Uzbek relations.*

1926-cı il fevralın 26-da Azərbaycan tədqiq və tətəbbö cəmiyyəti və Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Bakıda Birinci Ümumittifaq Türkoloji Qurultayı çağırdı. Qurultay Maarif Sarayında (indiki Azərbaycan Milli Elmlər Akademiyası binasında) keçirildi. Qurultayın keçirildiyi maarif sarayının 3-cü mərtəbəsində iclas salonunun qabağındakı foyedə türk xalqlarının elm, maarif va mədəniyyət sahəsində qazandığı beşillik uğurları əks etdirən geniş sərgi açılmışdı.

Qurultaya 131 nümayəndə gəlmişdi. Onların 98-i türk, 33-ü qeyri-millətlərin nümayəndəsi idi. Qurultay nümayəndələri içərisində bircə nəfər qadın (Ayna Sultanova) var idi. Qurultaya nümayəndələr həm regionlar, həm də millilik üzrə seçilmişdilər. Belə ki, Azərbaycandan-6, Naxçıvandan-1, Təşkilat komitəsindən-15. Gürcüstandan-1, Ermənistandan-1, Acarıstandan-1, Türküstandan- 4, Krımdan-3, Tatarıtandan-6, Başqırdıstandan-3, Qazaxıstandan-3, Özbəkistandan-6, Türkmənistandan-4, Qırğızstandan-2, Oyrot vilayətindən-1, Yaqutstandan-3, Kalmık vilayətindən-1, Çuvaştandan- 2, Çinin Uyğur vilayətindən-1, Abxaziyadan-1, Xakasiyadan-1, Qaraçaylardan-1, Şimali Qafqazın Türkmən vilayətindən-1, Elmlər Akademiyasından-3, Şərqşünaslar cəmiyyətindən-3, Daşkənd universitetindən-1, Leninqrad universitetindən-1, Şimali-Qafqaz İcraiyyə Komitəsi Millətlər Sovetindən-2, Ufa XMK-dan-1, RSFSR Millətlər Sovetindən-4, SSRİ MİK Millətlər Sovetindən-1, Cənubi Azərbaycandan-2.

Fərdi şəkildə dəvət edilmişlər: Azərbaycandan-2, Tatanstandan-2, Şimali Qafqazdan-2, Moskvadan-2, Ukraynadan-1, Leninqraddan-1, Krımdan-2, Dağıstandan-2, Zaqafqaziyadan-2, Ermənistandan — 4, Başqırdıstandan — 2, Türkiyədən — 3, Almaniyadan — 2, Macarıstandan — 1 nümayəndənin iştirak etdiyi 1926-cı il Birinci Türkoloji Qurultayda özbəklərin çoxluğu təsadüfi deyildi. Azərbaycanlılar və özbəklər minlərlə kilometr uzaqda yaşasalar da, ortaq tarixi və mədəni köklərə malik idilər. Bu yaxınlıq, xüsusilə klassik ədəbiyyat sahəsində özünü göstərmişdir. Məhəmməd Füzuli və Əlişir Nəvainin əsərləri hər iki xalq arasında sevilərək oxunmuşdur.

Ədəbiyyat və elm sahəsindəki bu qarşılıqlı əlaqənin bariz nümunələrindən biri də Qarabağda doğulub, ömrünün böyük hissəsini Səmərqənddə yaşamış Yusif Qarabaği olmuşdur. Onun əsərləri yalnız yaşadığı dövrdə deyil, sonrakı nəsillər tərəfindən də maraqla qarşılanmış, Buxara əmiri onun şərəfinə xüsusi kitabxana tikdirmişdir. Hazırda Özbəkistanda onun 24 traktatı saxlanılır. Azərbaycan-Özbək əlaqələrinin inkişafında iştirak edənlər sırasında Seyid Rza Əlizadənin də adı çəkilməlidir. Dövrünün qabaqcıl maarifçilərindən olan Əlizadə çoxsaylı dilləri bilmiş, müxtəlif qəzet və jurnallarda məqalələrlə çıxış etmiş,

məktəblər və teatr tamaşalarının təşəbbüskarı kimi tanınmışdır. O, həmçinin dərsliklər və dini kitablar yazaraq regionun maariflǝndirilmǝsinǝ töhfǝ vermiş, əsərləri bu gün də bir sıra ölkələrin mədrəsələrində istifadə olunur. Pakistanın Lahor şəhərində onun 33 kitabı saxlanılır.Azərbaycanlıların Özbəkistanda qazandığı nüfuz yalnız könüllü köçənlərlə məhdudlaşmamışdır. Sürgün edilən azərbaycanlılar da çalışqanlıq və bacarıqları ilə seçilirdilər. Onlardan biri də yazıçı və ictimai xadim Maqsud Şeyxzadə olmuşdur.

Bütün müstəmləkəçilər kimi Rusiya da əsarət altına aldığı xalqları parçalamaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. 19-cu yüzildə Türküstanda cədidçilərlə qədimçilər arasında gərginlik o yerə çatmışdır ki, az qala müstəmləkəçilərin zülmü yaddan çıxmışdı (1, s.76). Onlar birləşib işğalçılara qarşı xalqı səfərbərliyə al maqdansa, bir-birinə qarşı barışmaz düşmənlər kimi davranırdılar. Hökumət dairələri cədidçilərin tərəfini saxlasa da, onlar üzərindəki nəzarətini bir an da olsa azaltmırdı. Hətta cədidçilərin fəallarını həbs etməkdən, sürgünə göndərməkdən və başqa vasitələrlə cəzalandırmaqdan da çəkinmirdi. Bolşeviklər hakimiyyətə gəldikləri vaxt verdikləri saxta vədlərə aldanan cədidçıların əksəriyyəti onların tərəfini saxladılar. Elə ki, Sovetlər mövqelərini yerlərdə möhkəmlətməyə başladı, cədidçiləri də sıxışdırdı, təqib etdi, həbslərə atdı və güllələtdi. 1926-cı ildə Bakıda Türkoloji Qurultaya hazırlıq gedəndə Özbəkistanda Münevverkari Abdureşidovun, Abdurrauf Fitrət, Abdulhamid Çolpan, Abdulla Avlanidir, Qulom Zafariy, Tavollo ləqəbilə tanınan Tulaqan Xujamyarovun, Abdulla Qədiri, Seyid Rza Əlizadə və b. cədidçilər müxtəlif vəzifələrdə işləyirdilər və cəmiyyətdə də böyük nüfuzları vardı. Onların əksəriyyəti də ərəb əlifbasında islahatlar aparılması və ya yeni əlifbaya keçilməsi uğrunda illərdir mübarizə aparırdılar. Lakin onlardan heç biri Qurultaya nəinki nümayəndə kimi, heç dəvət olunan, fəxri qonaq kimi də çağrılmadılar. Özbəkistandan Türkoloji Qurultayda *Abdurrəşid Abducabbarov*, *Qazi Alim Yunusov*, *Şakircan Rəhimi*, *Bikcan Rəhmanov*, *İsmail Sadri, Aşurəli Zahiri*, *Meşrik Yunus oğlu İlbek (Elbək)*, *Rəhim İnaqomovu*göndərildi. (1926-cı il, 2006:345-350). Rəhim İnaqomov, Abdurrəşid Abducabbarov, Qazi Alim Yunusov və Qazan tatarlarından olub da Səmərqənddə yaşayan Mecid Usmanov Səmərqənd göndərilmişdir. O dövrdə Səmərqənd Özbəkistanın paytaxtı idi.

*Məşriq Yunus oğlu İlbəy (Elbəy)* 1898- ci ildə Özbəkistanın Bostanlıq rayonunun Xumsan kəndində kasıb ailədə doğulmuşdur. Məşriqin uşaqlıq illəri Türküstan torpaqlarının bölünməsi, talan edildiyi ağır dövrdə keçirdi. O, 1905-ci ildə dörd illik məktəbə daxil olur və əla oxuyur. Sonra Daşkəndə gələrək, Quyu Divanbəyi məhəlləsində 1911-ci ildə yeni üsullu (Üsuli-cədid) məktəbə daxil olur. Maddi sıxıntı içərisində yaşayan Elbəy təhsilini davam etdirib elm öyrənirdi. Daşkənd şəhərinin, Şayxontoxur məhəlləsində Münəvvər Qarının ( o dövrdə ən nümunəvi sayılan) Rüşdiyyə məktəbini bitirdikdən sonra müəllimlik etdi. Müəllimliklə bərabər Elbəy mətbəədə də işlədi. Beləcə, O, mətbuat, çap işlərini püxtə öyrəndi. Yaradıcılığının ilk mərhələsinə başlayaraq, müxtəlif mətbuatlarda məqalələr çap etməyə başladı. Türkistanın əvvəl Çar Rusiyasının, sonra isə bolşeviklərin alovunda yandığı bir vaxtda, Elbəy kimi ürəyi odlu

vətənpərvər ziyalılara ehtiyac var idi. Eyni zamanda sovet ideologiyası qabaqcıl milli ziyalıları nəzarətdə saxlasa da, onları ələ alıb, özlərinə xidmət etdirmək məqsədi ilə bəzən onlara şərait də yaradırdılar. Elə bu illərdə gənc şair, yazıçı Elbəy 1917-ci ildən başlayaraq, müxtəlif mətbuatlarda "Kurolqa" (silaha), “Turan”, “Türk sözü”, xüsusən 1920-ci ildən texnikum və institutda dərs verdiyi zaman, araşdırmalar apardı, dərsliklər yaratdı, məqalələr dərc etdi. Qeyd etdiyimiz kimi, bolşeviklərin aldadıcı güzəştlərindən bir az yararlanan Elbəy 1926-cı ildə Bakı qurultayından geri döndükdən sonra vətəninə, xalqına edilən haqsızlığa dözə bilmədiyindən öz etirazını “ Lena gülləboranı”, “Azadlıq gülləboranı”, “Özbək igidinə”, “Müjdələr”, “Dəniz”, “Solğun çiçək”, “Könül çiçəyi” və başqa çoxsaylı şeirləri ilə bildirirdi (1, s77). Elbəyin zəngin elm və publisistik irsini qısa bir vaxt çərçivəsində, yaxud bir neçə vərəqə sığdırmaq mümkün deyil. Acınacaqlısı odur ki, cəmi qırx dörd il ömür yaşayan, ondan da beş ilini Stalin rejimi casuslarının zülmünə dözə bilməyib 1942-ci ildə xalq düşməni” damğası ilə həbsxanada vəfat etdi. Məhz Özbəkistan müstəmləkədən azad olduqdan sonra Elbəyin qızıl xəzinəsindən əsərləri çap olundu və xatirəsi əbədiləşdirildi.

*Qazi Alim Yunusov* (1889-1942) - Özbəkistanın tarixçisi və folklorşünası kimi fəaliyyət göstərmişdir. Daşkənd şəhərində doğulsa da əsasən qədim Səmərqənd şəhərində yaşayıb, yaratmışdır, Özbəkistan Akademiyası mərkəzində sədr müavini vəzifəsində çalışaraq xalq epik mahnılarını, dastanlarını və özbək xalqının milli quruluşu tarixi barəsində materiallar toplayaraq çap etmişdir. Qazi Alim Yunusovda Birinci Türkoloji Qurultayda iştirak etmişdir. Özbəkistan nümayəndəsi Qazi Alim Yunusovun qurultayda bir çıxışda olmuşdur. Bu çıxışda o belə demişdir: "Burada türk xalqlarının etnoqrafiyasından, bu sahədəki uğurlardan danışıldı. Amma bu məruzələr o qədər məhdud idi ki, jurnallardan götürülmüş məqaləni xatırladırdı. Bu məruzələr türk xalqlannin maddi-mədəniyyət tarixini əks etdirən faktlarla kifayət qədər əsaslandırılmamışdı. Mən istərdim ki, Orta Asiya türklərinin tarixi və etnoqrafiyası ki, başqa xalqlara da güclü təsir göstərmişdir, onlar dərindən öyrənilsin. No Moskva, no Leninqrad bu məsələ ilə ciddi məşğul olmamışdır. Mən istərdim ki, qurultay bu məsələyə ciddi fikir versin". Onun da millətsevərliyi, bilimdanlığı nəticəsində 4 dekabr 1937-ci ildə NKVD-nin üçlüyü tərəfindən on il həbs olunmuşdur. 5 may 1942-ci ildə Arxangel vilayətində həbsxanada vəfat etmişdir.

Özbəkistan Akademiya Mərkəzinin sədri *Abdurrəşid Abdulcabbarovda* Birinci Türkoloji Qurultayda iştirak etmişdir. Bu qurultayda bir çox təkliflər irəli sürmüşdür. Onun bu təklifləri öz növbəsində qurultaya töhfəsini vermişdir.A.Abdulcabbarov Azərbaycan, Türkmənistan, Qazaxıstan və başqa respublikaların nümayəndə heyətləri adından qurultayən rəyasət heyətinin aşağıdakı nümayəndələrdən (22 nəfər) ibarət olmasını təklif etdi (Özbəkcə):

1. Ağamalıoğlu Səmədağa (vəzifəsi göstərilmir)
2. Axundov Ruhulla - Azərbaycan
3. V.V.Bartold - akademik
4. Ə.Baytursun - Qazaxıstan
5. İ.N.Baraxov - Yaqutstan Respublikası
6. Borozdin - Şərqşünaslıq Assosiasiyası
7. Cəbiyev Həbib (vəzifəsi göstərilmir)
8. İbrahimov Qalımcan - Tatarıstan
9. İdelquzm - Başqırdıstan
10. Köprülüzadə M.F. - Türkiyə
11. Qorxmazov - Dağıstan
12. Nahamov İ. - Özbəkistan;
13. Naqoviçin - RSSR XMK;
14. Oldenburq - akademik;
15. Pavloviç - Şərqşünaslar Assosiasiyası;
16. Samoyloviç A.N. - professor;
17. Tınıstanov - Qara-qırğızıstan;
18. Çobanzadə B.V. - professor;
19. Berdiyev - Türkmənistan
20. Ağçörəkli - Krım;
21. Əliyev Omər - Şimali Qafqaz;
22. Mençel - professor, Avropa alimləri nümayəndəsi;

Bundan sonra Abulcabbarov yenə həmin nümayəndə heyəti adından özü də daxil olmaqla 5 nəfərdən ibarət mandat komissiyasının tərkibini təklif edir. Buraya 1) Məmmədzadə (YTƏK-dən); 2) V.B.Tomaşevski (Leninqrad Universitetinin rektoru, 1925-ci illər- də BDU-da kafedra müdiri olmuşdur - A.B.); 3) İvanov A.A. - jurnalist, yaqut; 4) Abulcabbarov R. Özbəkistan, Akademik mərkə- zin direktoru; 5) İvanov C.İ. - Cuvaş, Cuvaşiya MİK.

Qurultayın redaksiya heyəti isə 6 nəfərdən ibarət təklif edilir. Yenə A.Abdulcabbarov komissiyanı tərkibini aşağıdakı kimi təklif edir:

1. Zifeld A.Z. - filoloq, Bakı, Təşkilat Komitəsi üzvü;
2. Yakovlev N.F. - professor, Moskva, xüsusi-fərdi dəvət edilmişdir;
3. Maqsudov Q.A. - Tataristan XMK kollegiya üzvü, Qazan
4. Habitov H.A. - pedaqoq, Başqırt, Ufa şəhəri;
5. Rəhimi Şakircan - Özbəək. XMK;
6. Oşayev Xalid

Komitəsi;

Çeçen. Çeçenistan Vilayət İcraiyyə

Abdurrəşid Abdulcabbarov qurultayın katibliyinə 5 nəfərin seçilməsini təklif edir. Bunlar aşağıdakılardır:

1. Qasımov Pənah - Azərbaycan Maarif işçiləri Komitəsinin sədri:
2. Veltman Solomon - jurnalist, ümumittifaq şərqşünaslar assosiasiyası;
3. Gəldiyev Məhəmməd – Türkmənistan XMK;
4. Odabaş H.A. – Krım Dövlət Universitetinin müəllimi
5. Sultanova Ayna – müəllimə, Bakı.

Təklif olunan bütün üzvlər yekdilliklə qəbul edilir.

Birinci Türkoloji Qurultay təkcə elm və dil sahəsində deyil, həm də türk xalqları arasında həmrəyliyin və birliyin gücləndirilməsi baxımından mühüm bir hadisə olmuşdur. Qurultayda iştirak edən özbək nümayəndələri — Abdurrəşid Abducabbarov, Qazi Alim Yunusov, Məşriq Yunus oğlu Elbəy və digərləri — öz intellektual səviyyələri, ictimai mövqeləri və mədəni irsə bağlılıqları ilə seçilmiş, türk dünyasının ortaq dəyərlərinin formalaşmasında əhəmiyyətli rol oynamışlar. Onların qurultayda irəli sürdükləri təkliflər və çıxışlar türkologiya elminin gələcək inkişafına mühüm töhfələr vermişdir. Repressiya və təqiblərə baxmayaraq, bu ziyalıların fəaliyyəti sübut edir ki, türkdilli xalqların maariflәndirilməsi, milli kimliyinin qorunması və ortaq mədəni irsin yaşadılması istiqamətində səylər dönməz və dəyərli olmuşdur. Bu baxımdan, özbək nümayəndələrinin Birinci Türkoloji Qurultaydakı iştirakı tariximizdə və elm tarixində önəmli yer tutur.

**Ədəbiyyat**

1. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). Bakı: Elm və təhsil nəşriyyatı, 2016, -100 səh.
2. Adil Babayev. Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. Bakı, “Elm”, 2016, 336 səh.
3. Elman Quliyev. Türk xalqları ədəbiyyatı. (derslik, təkmilləşdirilmiş və əlavələr edilmişyeni nəşr). Bakı, “Elm və təhsil”, 2025, 864 səh.
4. Mahmud Kaşğarlı Cild II. №1. 2024, Tom II №1. 2024, Volume II. №1. 2024
5. “ Ayna” (Güzgü) jurnalı, 35-ci nömrə, 1914
6. 1926-cı il I Bakı Türkoloji Qurultayı (2006) (Stenoqram materialları, bibliqrafiya və foto-sənədlər), Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: professor Kamil Vəli Nərimanoğlu, Elmi işçi Əliheydər Atakişiyev. “Çinar-Çap” nəşriyyatı, Bakı.

**DOI:** 10.52773/tsuull.conf.2025/PYIF5389

## МУСТАЙ КАРИМ: ШАХС ВА ИЖОД УЙҒУНЛИГИ

**Гулноз Сатторова**
*ЎзРФА Ўзбек тили, адабиёти ва фольклори институти*
*катта илмий ходими, филология фанлари номзоди*

**Калит сўзлар:** *бошқирд адабиёти, шоир, қисса, миллий ғурур, ижод, шахсият.*

Ҳар бир халқ ва миллат маънавиятининг шаклланиши ва ривожланишида шу миллатнинг буюк истеъдодлари, мутафаккирларининг таъсири ва алоҳида ўрни бўлади. Шундай ижодкорлар борки, улар жамият ижтимоий-сиёсий ҳаёти, миллий юксалиши йўлида яратган асарлари билан пойдевор қўядилар. Миллат адабиётининг юксалиши учун асос бўладилар. Ана шундай ижодкорлардан бири бошқирд халқининг суюкли фарзанди Мустай Каримдир. Дарҳақиқат, XX асрнинг 40-90-йиллари бошқирд адабиётини адиб ижодисиз тасаввур қилиб бўлмайди.

| V SHU'BA. MADANIY HAMKORLIKNING TA'LIM TIZIMIDAGI O'RNI: TIL VA ADABIYOT | |
|---|---|
| ***Бердин Азат Тагирович.*** *ОБЩЕЕ И ОСОБЕННОЕ В ГЕНЕЗИСЕ УММЫ В ТЮРКСКИХ РЕСПУБЛИКАХ РОССИИ: ОПЫТ ИНТЕРПРЕТАЦИИ ИСТОРИЧЕСКИХ СМЫСЛОВ* | 375 |
| ***Gahramanov Sabuhi Adil oglu.*** *THE AIM OF AZERBAIJANISM AND DISSIDENTISM IN KHALIL RZA ULUTURK'S ARTISTIC CREATIVITY* | 388 |
| ***Гайфуллина Миляуша Фаниловна, Абдуллина Лилия Бакировна.*** *ПОЭТИКА ДОМА В РАННЕЙ ПРОЗЕ Л.Н. ТОЛСТОГО (НА МАТЕРИАЛЕ АВТОБИОГРАФИЧЕСКОЙ ТРИЛОГИИ «ДЕТСТВО», «ОТРОЧЕСТВО», «ЮНОСТЬ»)* | 396 |
| ***Gözde GÜNGÖR.*** *ABDULLA KAHHAR'IN MAHALLE ADLI HİKÂYESİNDE İDEOLOJİK ÖZNELEŞME SÜRECİ* | 405 |
| ***Həsənova Könül Nəriman qızı.*** *POEZİYANIN ÇOXNÖQTƏ İLƏ İŞARƏLƏN LEKSİK VAHİDLƏRİNDƏ FORMAL QƏNAƏTİN ANLAMA MODELLƏRİ* | 412 |
| ***Ishonxanova Iroda Abduvaxitovna.*** *ALEKSANDR BOROVKOV – ALISHER NAVOIY TADQIQOTCHISI SIFATIDA* | 419 |
| ***Ebru KABAKÇI.*** *TÜRKİYE'DE EĞİTİM ALANINDA YAZILAN LİSANSÜSTÜ TEZLERDE BAĞIMSIZ TÜRK CUMHURİYETLERİNE YÖNELİK İLGİNİN SEYRİ (2000–2025): AKADEMİK PERSPEKTİFTEN KÜLTÜREL BÜTÜNLEŞMEYE BİR BAKIŞ* | 427 |
| ***Кожоева Гулжамал Жайлообаевна.*** *ХИАЗМДУУ КАЙТАЛООЛОРДУН ӨЗГӨЧӨЛҮКТӨРҮ* | 439 |
| ***Musayev Dəyanət Musa oğlu.*** *BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TARİXİ MİSSİYASI* | 446 |
| ***Mirzəzadə Rəqsanə.*** *BIRINCI TÜRKOLOJI QURULTAYDA İŞTIRAK EDƏN ÖZBƏK NÜMAYƏNDƏLƏRI* | 456 |
| ***Гулноз Сатторова.*** *МУСТАЙ КАРИМ: ШАХС ВА ИЖОД УЙҒУНЛИГИ* | 461 |
| ***Nərmin Rəhimova.*** *RƏŞAD NURİ GÜNTƏKİNİN "ÇALIKUŞU" ƏSƏRİNİN TƏHLİLİ* | 465 |
| ***Юсупов Ильшат Фаритович.*** *ЭТНОКУЛЬТУРНЫЕ ФАКТОРЫ ЛИНГВИСТИЧЕСКОГО ЛАНДШАФТА НА МАТЕРИАЛЕ ЗАУРАЛЬСКИХ РАЙОНОВ БАШКОРТОСТАНА* | 471 |
| ***Р.А. БАЗАРБАЕВА.*** *КӨРКЕМ МӘТІНДІ ТАЛДАУ АРҚЫЛЫ ОҚУШЫЛАРДЫҢ КРЕАТИВТІ КОМПЕТЕНЦИЯСЫН ДАМЫТУ* | 478 |
| ***Inogamova Nargiza Shavkatovna.*** *LINGVOKULTUREMALARNING TIL VA ADABIYOT TA'LIMI JARAYONIDAGI ROLI XUSUSIDA* | 482 |
| ***Panjiyeva Zilola.*** *TILNING PARAMEOLOGIK FONDI* | 489 |
| ***Musayeva Sarvinoz.*** *YOZMA NUTQDA IMLOVIY XATOLAR: SABAB VA OQIBATLARI* | 490 |
| ***Лиана Саттарова, Фания Сулейманова.*** *ПРОБЛЕМА «НЕВЫРАЗИМОГО» В ДНЕВНИКАХ 50-Х ГГ.* | 493 |